Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

REGİON

№ 193 (1321) 19 oktyabr - 20 oktyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Hər gün yeniləşən Xaçmaz

**Ölkəmizin regionları içərisində özünəməxsus yeri olan Xaçmaz həm də Azərbaycanın şimalında mühüm iqtisadi bir zonanı təşkil edir. Yəni bu rayonun inkişafı, tərəqqisi, çiçəklənməsi, iqtisadi gücünün artması ölkəmizə şimaldan gələn hər bir qonaqda müsbət rəy yaradır, ölkəmizin inkişaf barəsində fikirlər formalaşdırır. Bax, bu mənada məsələyə yanaşanda, onda ”Regionların İnkişafına Dair Dövlət Proqramı”nın əhəmiyyəti daha da artır və onun gərəkliyi labüd olur.**

Təbii ki, ölkə rəhbərliyinin, öncə isə ümummilli liderimizin layiqli varisi, Azərbaycan prezidenti cənab İlham Əliyev ölkə iqtisadiyyatının inkişaf parametrlərinin gerçəkləşməsində iqtisadi mexanizmin tam gücü ilə işləməsində vacib olan ən zəruri və ciddi addımların vaxtında atılmasının həm təminatçısı, həm də qarantı kimi çıxış edərək bu yöndə böyük uğurlara şərait yaradır. Məhz bu mənada digər bölgələrimiz kimi, Xaçmazda da uğurlu iqtisadi inkişaf, mədəni yüksəliş təmin olunmaqdadı. Belə ki, son illərdə rayonda aparılan quruculuq işlərinə və bütövlükdə rayonun mənzərəsinə, coğrafiyasına göz yetirəndə yeniliklər dərhal diqqəti çəkir, görülən işlərin əhəmiyyəti və səmərəliliyi hər kəsdə müsbət fikirlər yaradır. Açıqca hiss olunur ki, Xaçmazda da sözün bütün mənalarında ölkə prezidentinin fərman və sərəncamları, tapşırıqları, göstərişləri rəhbər tutulur və birmənalı şəkildə vaxtında icra olunur. Bu da rayon rəhbərliyinə rayonun iqtisadi inkişafını sürətləndirmək, ictimai-siyasi sabitliyi qorumaq, qanunların icrasını təmin etmək imkanları verir və bunlar da məqsədyönlü şəkildə həyata keçirilir. Əgər rəqəmlərin dili ilə ifadə etsək, regional inkişaf proqramı demək olar ki, Xaçmazda uğurla başa çatdırılmış və proqram çərçivəsində Xaçmazda sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı sahəsi genişləndirilmiş, yol təsərrüfatı, təbii qaz təminatı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələr müvafiq şəkildə inkişaf etdirilmiş və həmin sahələr üzrə uğurlu işlər gerçəkləşdirilmişdi. Bu gün isə rayonda 2015-2018-ci illəri əhatə edəcək yeni dörd illik inkişaf proqramı nəzərdə tutulmuş və bu istiqamətdə müəyyən addımlar da atılmışdı.

**“...Kənd təsərrüfatının, sahibkarlığın inkişafı isə bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, eyni zamanda, insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir”.**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



Rayonda olarkən əldə etdiyimiz məlumatlara görə, ikinci dövlət proqramının qəbulundan keçən müddət ərzində Xaçmazda gerçəkləşdirilmiş işlər nəticəsində 8938 yeni iş yeri açılmışdır. Həmin bu iş yerlərinin 5197-si daimi iş yeridi. Bu da fərdi qaydada diqqətə təqdim etsək, bu qədər ailənin büdcəsinə daxil olan əməkhaqqı - vəsait deməkdi. Xatırlatmaq yerinə düşər ki, cari ilin 9 ayında 1335 yeni iş yeri açılmışdır ki, bunun da 1210-u daimi iş yeri sayılır. Əgər son onilliyə diqqət yetirsək, onda məlum olar ki, həmin müddət ərzində rayonda 19992 yeni iş yeri açılmışdır ki, açılan iş yerlərinin 11440-ı daimidi.

Xaçmazda həyata keçirilən iqtisadi-mədəni inkişafın ümumi mənzərəsini sahələr üzrə xarakterizə etsək, onda öncə rayonun sənaye sahəsində qazandığı nailiyyətlərə nəzər yetirməli olacağıq.

Cari ilin 6 ayı ilə bağlı rayonda keçirilən sosial iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə icra hakimiyyəti başçısının birinci müavinin hesabatındakı çıxışında göstərilmişdi ki, Xaçmazda ümumi məhsul buraxılışı 296,9 milyon manat təşkil etmişdi. Burada göstərilən dövr ərzində sənaye məhsulu 22,5 milyon manat, kənd təsərrüfatının ümumi həcmi 180,7 milyon manat, əhaliyə göstərilən pulu xidmətlərin həcmi 59,5 milyon manat, pərakəndə əmtəə dövriyyəsi 211,6 milyon manat, adambaşına düşən pul gəlirləri 1746 manat təşkil etmişdi.

Sevindirici haldır ki, rayonda keçirilən hesabat yığıncağında da qeyd olunduğu kimi, Xaçmazda ümumi sahəsi 14,34 kv.metr olan mənzil tikintisi gerçəkləşdirilmiş və həmin tikilmiş mənzillər sakinlərin istifadəsinə verilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, rayonda bu ilin 6 ayındakı orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz artaraq 302,5 manat təşkil etmişdi.



Bu gün Xaçmazda hər kəs rayonun inkişafı ilə bağlı atılan addımları seyr edərkən buraya ümummilli liderimiz Heydər Əliyev cənablarının, həmçinin Azərbaycan prezidenti İlham Əliyev cənablarının səfərlərini çox böyük sevgi ilə xatırlayırlar. Çünki bu səfərlərin hər birində rayon üçün, onun sakinləri üçün kifayət qədər önəmli məqamlar olub. Məhz Azərbaycan prezidenti İlham Əliyev cənablarının böyük qayğısı nəticəsində Xaçmaz rayonunun mərkəzində və digər ərazilərdə abadlıq işləri sürətləndirilmiş, yeni parklar salınmış, komplekslər tikilmiş, mərkəzlər açılmışdı. Təbii ki, bütün bunlarda rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevin xüsusi xidmətləri var. O, rayon icra hakimiyyətinin başçısı təyin olunduğu gündən Xaçmazda bütün sahələr üzrə yeniləşmə, inkişaf diqqəti çəkib və bu gün də yüksələn xətt üzrə inkişaf davam etdirilir.

Son illərdə Xaçmaz və Xudat şəhərində inşa edilən Heydər Əliyev mərkəzi və parkı sakinlərin ən çox üz tutduğu ünvanlardan biridi. Burada həmçinin Uşaq-gənclər idman məktəbi həm valideynlərin, həm də məktəblilərin ən çox diqqət ayırdıqları ünvanlardan biridi. Yəni burada uşaqlar həm idmanla məşğul olur, həm asudə vaxtlarını səmərəli keçirir, üstəlik də valideynlər övladlarından güvənli olurlar. Təbii ki, bütün bunlar da gənc nəslin formalaşmasında, inkişafında mühüm bir addımdı.

**(Ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ